# Böyük ədibə həsr olunmuş festival

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamına uyğun olaraq və dövlət başçısının 2019-cu ili "Nəsimi ili" etməsi ilə əlaqədar ölkəmizin hər yerində müxtəlif tədbirlərin keçirilməsi davam edir. Göyçay İnkişaf Mərkəzi qeyri hökümət təşkilatı da dahi şairin yubileyi münasibətilə rayonumuzda yadda qalan layihənin icrasına başlamışdır.



Qəbələ Mədəniyyət Mərkəzində Göyçay, Ağdaş, Qəbələ gəncləri arasında "Mən bu cahana sığmazam", gənclərin yaradıcılıq festivalı start götürmüşdür. Festival-müsabiqədə qeyd olunan rayonların gənclərinin Nəsimiyə aid ən yaxşı rəsm portretləri, ən yaxşı ifaları, şairə aid ən yaxşı foto, video reportajları münsiflər heyətinə təqdim olunmuşdur.

Rayonumuzu təmsil edən 10 nəfər gənc festivalın Göyçay şəhərində keçiriləcək növbəti mərhələsinə dəvət almışdır.

"Qəbələ"

# İstirahət parkı istifadəyə verilib

Şəhərimizə gözəllik gətirən və sakinlərin asudə vaxtlarını mənalı keçirmələri üçün üz tutduqları Qəbələ Diaqnostika Mərkəzinin qarşısındakı park əsaslı təmir və tikinti-quraşdırma işlərindən sonra istifadəyə verilib.



Burada sakinlərin, qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.

Ərazisindəki müxtəlif dekorativ ağaclar, kollar və çiçəklər, buradakı fəvvarə kompleksi, gözəl landşaft kompozisiyaları parka xüsusi yaraşıq verir.

İstirahət məkanının ətrafındakı avtomobil yollarına yeni asfalt döşənmişdir.

Görülən abadlıq və yenidənqurma işləri çərçivəsində şəhərin Heydər Əliyev prospektindəki ictimai yaşayış binalarında da cari təmir işləri aparılır.

Rayonumuzda bu gün geniş vüsət alan abadlıq-quruculuq işləri bir daha təsdiqləyir ki, füsunkar diyarımızın beynəlxalq turizm mərkəzinə çevrilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər dövlətimizin başçısının və rayon rəhbərliyinin daim diqqət mərkəzindədir.

"Qəbələ"

# Türkiyəli alim Qəbələdə

Türkiyənin məşhur ədəbiyyat araşdırıcısı professor Yavuz Akpınar Qəbələ rayonuna səfəri çərçivəsində rayon tarix-diyarşünaslıq muzeyində olmuş, buradakı eksponatlara maraqla tamaşa etmişdir. Muzeyin rəy kitabına Azərbaycan tarixi, mədəniyyəti, abidələri haqqında ürək sözlərini yazan alim İsmayıl bəy Qutqaşınlı xatirə evinə də baş çəkmiş, görkəmli ədibin həyat və fəaliyyətilə tanış olmuş, məzarını ziyarət etmişdir.

Qeyd etmək lazımdır ki, Yavuz Akpınarın elmi yaradıcılığı və fəaliyyəti Azərbaycan ədəbiyyatı ilə sıx bağlıdır. Onun doktorluq dissertasiyası M.F.Axundovun ədəbi yaradıcılığına həsr olunub. Alim Türkiyənin və ABŞ-ın müxtəlif universitetlərində Azərbaycan ədəbiyyatı mövzusunda mühazirələr oxuyub.

Yavuz Akpınar Bakı Dövlət Universitetinin fəxri professorudur.

**İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**

# "Qəbələnin musiqi salnaməsi" kitabının təqdimatı olub

Oktyabrın 18-də Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm", "Məhsəti Gəncəvi" və "Gənclər" mükafatlarının laureatı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının "Elm vəTəhsil" nəşriyyatında dərc olunmuş "Qəbələnin musiqi salnaməsi" adlı yeni kitabının təqdimatı keçirilib.

Tədbirdə Qəbələnin musiqi ictimaiyyətinin nümayəndələri, ötən əsrdə yaşamış musiqiçilərin ailə üzvləri, ziyalılar, mədəniyyət və incəsənət işçiləri iştirak ediblər.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimində Səadət Təhmirazqızının musiqi mədəniyyətimizin tarixi kökləri və milli musiqimizin keçdiyi yol haqqında araşdırılmalarından, bu sahədəki səmərəli elmi fəaliyyətindən, Azərbaycanın musiqi xadimlərinin yaradıcılıqlarına dair






apardığı tədqiqat işlərindən və "Qəbələnin musiqi salnaməsi" kitabının məziyyətlərindən ətraflı danışılıb.

Əməkdar artist Təhmiraz Şirinov, Ümumittifaq musiqi festivalının laureatı Varis Yaqubov, regional mədəniyyət idarəsinin məsul işçisi Nargilə Qafarova, rayon incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev, müsiqi festivalı laureatı, xanəndə Ramiz Mürsəliyev, Əlövsət Dəmirov, qarmon ifaçısı Elxan Tağıyev, ustad xanəndələrdən mərhum Təmi Hacıyevin, Siracəddin Gəncimovun, Əlimurad Bağırovun, kamança ifaçısı Kərim Səlimovun, aktyorlardan Kamal Osmanlının, Tamara Cəfərovanın ailə üzvləri çıxış ediblər.

Yerli yazarlardan Mehrəli Mehrəliyev, Əhməd Məmmədli, Şəhla Xəlilqızı və digərləri musiqiçilərimiz haqqında öz xatirələrini danışıblar.

Tədbir iştirakçılarına xalq teatrı aktyorlarının və milli üçlüyün ifasında ötən əsrdə yaşayıb-yaradan sənətkarlarımızın repertuarlarından nümunələr təqdim olunub.

Sonda kitabın hazırlanmasında zəhməti olan hər bir kəsə, tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirən müəllif imzası ilə kitablarını oxuculara təqdim edib.

"Qəbələ"

# Yerli yazarların kitab sərgisi

Rayon tarix-diyarşünaslıq muzeyində yerli yazarların kitablarından ibarət sərgi təşkil edilmişdir. Muzeyin fondunda mühafizə edilən bu kitablar arasında Tacəddin Şahdağlının, Füzuli Yavərin, Aygün Həsənoğlunun, Abid Tahirlinin, Şəlalə Məhyəddinqızının, Hüseynağa Qasımovun, Nüsrət Nuriyevin, Mirhəsən Ağayevin, və s.yazarların əsərləri geniş yer almışdır.

**Həqiqət RÜSTƏMLİ,**
**muzeyin direktoru.**

# Ən ağır neytron ulduzu müəyyən edilib

Ağ cırtdan ulduzun ətrafında fırlanan "J0740+6620" obyekti ən ağır neytron ulduz hesab olunub. Astronomlar bildiriblər ki, onun çəkisi Günəşdən 2,17 dəfə ağırdır. Alimlər hesab edirlər ki, yeni kəşf bu ağırlıqda neytron ulduzların qara dəliyə çevrilməsi nəzəriyyəsini alt-üst edib.

"J0740+6620" obyektinin diametri 30 kilometrə yaxın olsa da, bu neytron ulduzun çəkisi 4,32 * 1030 kiloqramdır. O, Günəşdən iki dəfə, Yer kürəsindən isə 722 dəfə ağırdır. Bu obyekt istilik-nüvə enerjisindən məhrum



olan və yalnız öz daxili istilik enerjisi hesabına işıq saçan ağ cırtdan ulduzun ətrafında fırlanır. Bu ikili sistemdən Yer kürəsinə işıq isə 4600 işıq ili müddətində çatır, yeni aradakı məsafə 43,52 * 1015 kilometrdir.

Astronomlar neytron ulduzunun çəkisini "Şapiro gecikdirməsi" adlanan metodla hesablayıblar.

Məlumdur ki, neytron ulduzlar daha yenilərinin parlaması nəticəsində əmələ gəlir və Kainatdakı ən ağır obyektlərdən biri sayılırlar. Bir qayda olaraq, bu cür obyektlərin radiusu 10-20 kilometr, çəkisi isə Günəşdən 1,3-dən 1,5 dəfəyə qədər ağır olur.

# Turist axınına geniş yol açılıb

Qəbələ rayonunun turizm sektoru təbiət mənzərələri, tarix-mədəniyyət abidələri və müasir turizm kompleksləri baxımından zəngin imkanlara malikdir.

Son illər Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına, makroiqtisadi göstəricilərin davamlı artımına səbəb olub. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı vardır. Azərbaycanın coğrafi mövqeyi, təbiəti, tarixi, iqlimi, abidələri, mətbəxi, xalqımızın zəngin mədəniyyəti və digər amillər turistlərin Azərbaycana böyük axınla səfər etməsinə geniş yol açıb.

2019-cu ilin 9-ayı ərzində Qəbələ rayonuda ərazisində 988 nömrəlik, 2258 ümumi yerlik 15 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərib. Həmin dövrdə 20258 carpayı yerdən istifadə olunub.

Göstərilən müddət ərzində mehmanxana və mehmanxana tipli müəssisələrdə 111455 nömrə-gün istifadə edilib. Bir gün üçün qalmaq xərci orta hesabla 91.5 manat təşkil edib.

Bu müəssisələrdə yanvar ayında 11088, fevral ayında 6702, mart ayında 9475, aprel ayında 13525, may ayında 5490, iyun ayında 21053, iyul ayında 35453, avqust ayında 36466, sentyabr ayında 13788 nəfər olmaqla cəmi 153040 nəfər yerləşdirilib ki, onlardan Azərbaycan vətəndaşları 32,6 faiz və ya 49944 nəfər, xarici ölkələrin vətəndaşları 67,4 faiz və ya 103096 nəfər olub.

Xarici ölkə vətəndaşlarının 5061 nəfəri Bəhreyn, 13734 nəfəri Birləşmiş Ərəb Əmirlikləri, 1050 nəfəri Çin, 5604 nəfəri Küveyt, 2746 nəfəri Rusiya Federasiyası, 4588 nəfəri Qətər, 3487 nəfəri Oman, 17895 nəfəri Səudiyyə Ərəbistanı, 514 nəfər İraq, 2738 nəfər İsrayıl, 2586 nəfəri Hindistan, 3665 nəfəri Özbəkistan, 39428 nəfəri isə digər ölkələrdən gəlib.

Turistlərin qalma müddəti 1-2 gün olub.

Rayonun mehmanxana və mehmanxana tipli müəssisələrində bu müddətdə işçilərin orta sayı 1259 nəfər, o cümlədən qadınlar 243 nəfər , turizm və otelçilik ixtisası üzrə təhsil aimiş işçilər 82 nəfər, əcnəbi işçilər 36 nəfər olub.

**Lətafət SALMANOVA,**
**rayon statistika idarəsinin məsləhətçisi.**